**Cəmaləddin Pərviz oğlu Məmmədov**
**AMEA İqtisadiyyat İnstitutu, doktorant**
**E-mail:jamal.mammadov23@gmail.com**
**UOT:338.7; 3338.008; JEL: I39; P39.**

# Azərbaycanda muzeylər iqtisadiyyatın tərkib hissəsi kimi

***Xülasə***

*Muzeylər qədim zamanlardan bəzi müxtəlif formalarda mövcud olmaqla, xalqın mədəniyyətinin, tarixinin, incəsənətinin, elminin inkişafında, gələcək nəsillərə ötürülməsində və qorunmasında önəmli rol oynamamışdır. Kapitalizmin inkişaf etdiyi dünyada mədəniyyət sənayesi anlayının formalaşması və bu sahələrin kommersiyalaçması ilə muzeylərə də iqtisadi aspektdən yanaşılmasına başlanılmışdır. Məqalənin yazılmasında əsas məqsəd də məhz qloballaşmanın sürətlə getdiyi dünyada Azərbaycanda muzey sahəsinin müasir vəziyyətinin müəyyən etmək və onun inkişaf istiqamətlərini müəyyən etməkdir. Məqalə, dünya təcrübəsinə istinad edilməklə, ARDSK-də əks olunan məlumatlardan istifadə edilməklə hazırlanmışdır. Onun əhəmiyyəti hazırda ölkəmizdə mədəniyyət sahəsinin inkişafında aparılan islahatlar çərçivəsində muzeylərin mövcud vəziyyətinə nəzər yetirmək baxımından, həmçinin gələcəkdə bu sahədə araşdırma edəcək şəxslər üçün baza kimi çıxış etməsindədir. Məqalə üzərində iş aparan zaman əldə olunan əsas nəticələr, ölkəmizdə muzeylərin sayında 2000-ci illə müqayisədə 2020-ci ildə 48,3% artımın qeydə alınması, muzeylərdə çalışan işçilərin sayında 37,9% artımın qeydə alınması kimi nəticələrin əldə olunması olmuşdur. Burada müasir dövrdə muzeylərin gəlirliliyinin artırılması üsulları qeyd edilmiş, ölkəmizdəki mövcud vəziyyət təhlil edilərək, onların müasir standartlara uyğunlaşdırılmasının üsulları göstərilmişdir.*
***Açar sözlər:*** *muzey, ölkə, iqtisadiyyat, mədəniyyət*

## Giriş

Mədəniyyət sənayesinin tərkibinə daxil olan sahələrdən biri olan muzeylər, asudə vaxtın təşkilinin həyata keçirilməsi üsullardan biridir. Muzeylər ictimayətin mədəni mühitinin yaxşılaşdırılması ilə yanaşı, həmçinin sosial-iqtisadi əhəmiyyətə malikdir. Muzeylər digər mədəni sahələr kimi yerli inkişafa təkan verən sahələrdən biridir. Həmçinin, bəziləri muzeylərin ictimai mühitə, insanların rifahına, onların vətəndaş kimi formalaşmasına və sağlamlıqlarına təsirlərinin olduğunu düşünürlər. Bütün bunlarla yanaşı muzeylərin həmçinin müasir mədəniyyət sənayesinin bir alt qrupu olmaqla müasir iqtisadiyyatın bir parçalarıdırlar. Azərbaycan Respublikasında hazırda muzeylərin fəaliyyəti say, keçirilən sərgilərin sayı baxımından qənaətbəxş hesab olunsa da, kasıb muzey fondu, muzeylərin və əhalinin sayına nisbətdə muzey ziyarətçilərinin sayının az olması, həmçinin muzeylərin müasir standartlarla ayaqlaşmaması baxımından xüsusilə seçilir. İstər qonşu ölkələr, istərsə də inkişaf etmiş muzey şəbəkələrinə ev sahibliyi edən ölkələrlə müqayisədə bu sahənin ölkəmizdə lazımi səviyyədə inkişaf etmədiyini və ya kölgədə qaldığını müşahidə etmək çətin deyil. Bütün bunlar muzeylərin gəlirliliyinə, iqtisadiyyata təsirinin aşağı olmasına da səbəb olur. Məqalənin yazılmasını da şərtləndirən əsas məqam muzeylərin ölkəmizdə hazırkı vəziyyətini müəyyən etmək, onların digər ölkələrlə müqayisəsini apararaq, burada mövcud olan boşluqları aşkara çıxarmaq və onları təhlil etməkdən ibarətdir. Hazırda bu sahədə olan boşluqları və eyni zamanda mədəniyyət sənayesinə aid olan digər sahələrdə olduğu kimi, muzeylərin də iqtisadi obyekt kimi araşdırılmasında aparılan elmi işlərin azlığını nəzərə alaraq bu elmi məqalə muzeylərin mövcud vəziyyətinin qiymətləndirilməsində pioner rolunda çıxış edir. Qeyd edək ki, dünyada muzeylərin iqtisadi və sosial alət kimi araşdırılmasında Martin Feldstein, Bruno S.Frey, Karen Broun və François

Maresse kimi alimlər əsərlər yazmışlar. Bu isə muzeylərin sosial-iqtisadi əhəmiyyətinin dərk edilməsinin vacibliyini vurğulayan amillərdən biridir.

**Muzeylər qlobal iqtisadiyyatda sosial-iqtisadi həyatın təkənverici qüvvəsi kimi**

Muzeylər mədəniyyət sənayesinin ünsürlərindən biri olmaqla iqtisadi fəaliyyətin obyektlərindən biri kimi çıxış edirlər. Digər iqtisadi ünsürlər kimi muzeylər də müasir dövrdə bazarın iqtisadi qanunauyğunluqları əsasında fəaliyyət göstərirlər. Buna görə də muzeylərin də ilkin fəaliyyət istiqaməti bazarda tələb və təklifin mövcud vəziyyəti əsnasında qurulur. Muzeylərə tələbin iki forması vardır ki, bunlara şəxsi tələb və sosial tələblər aid edilir. Muzeylərə şəxsi tələb dedikdə əsasən hər hansısa bir məqsədlərə (məktəblilərin eksursiyaları, şəxsi maraq çərçivəsində muzeylərə ziyarət, araşdırma məqsədli ziyarətlər və s.) görə edilən ziyarətlər başa düşülür. Bu tip tələb muzeylərə olan əsas tələbi formalaşdırır. "Ziyarətlərin sayı bir müddət ərzində ziyarətlərin nisbətini müəyyən edən əsas amilləri tutmaqla ənənəvi tələb funksiyası ilə təhlil edilə bilər. Onun xüsusiyyətləri büdcə və vaxt məhdudiyyətlərinə uyğun olaraq fərdi kommunal funksiyaları maksimuma çatdırmaqla müəyyən edilə bilər. Onun xüsusiyyətləri muzey ziyarətləri haqqında məlumatlardan və tələb funksiyasına daxil olan amillərdən istifadə etməklə, adətən çoxsaylı reqressiya təhlili ilə empirik olaraq ölçülə bilər." [5, s. 21]. Burdan belə nəticəyə gəlmək olur ki, muzeylərin fəaliyyəti onlara olan tələbə əsasən ölçülə və fəaliyyətin keyfiyyəti müəyyən edilə bilər. Muzeylərə olan tələbin digər forması olan sosial tələb isə əsasən muzeylərin insanların üzərində yaratdığı sosial təsirlərdən qaynaqlanır. Belə ki, muzeylərə ziyarət prestijin, daxili zənginliyin, savadlılığın təzahürü kimi qiymətləndirildiyindən bəzi insanlar məhz buna görə muzeylərə üz tuturlar. Bütün bu tələblər əsasında isə təbii olaraq muzeylərin gəlirləri formalaşır. Tələb əsasında formalaşan gəlirlərin aşağıdakı mənbələrini ayıra bilərik:

- ⇨ Giriş haqqı - bu ziyarətcilərdən muzeylərə daxil olmaq üçün əldə edilən gəlir növüdür. Giriş haqları muzeylərə tələbin elastikliyini müəyyən edir. Bir çox ölkələrdə aparılmış ekonometrik hesablar onu göstərir ki, muzeylərə tələb əsasən qeyri-elastikdir. Bu isə muzeylərin qiymət artımı edərək gəlirlərini artıra biləcəyini mənasına gəlir;
- ⇨ Gəliri formalaşdıran digər amil isə alternativ xidmətlərdən əldə edilən gəlirdir. Bu gəlirlərə əsasən muzeydə fəaliyyət göstərən suvenir mağazaları, restoranlar kimi obyektlərdən gələn gəlirlər daxil edilir. Muzeylərin daxilində bu növ fəaliyyət mərkəzlərinin olması muzeyin ziyarətcilərinin vaxtlarını muzey daxilində daha səmərəli keçirməsinə, yəni daha çox ziyarətcini muzeyə cəlb etməyə təkan verir. Həçinin yuxarıda qeyd etdiyimiz kimi bu daha çox iş yerlərinin yaranmasına səbəb olur ki, bu da öz növbəsində əhalinin sosial vəziyyətinə təsir göstərir;
- ⇨ Vaxtın fürsət dəyəri - bu insanların muzeyə səfəri zamanı digər alternativlərdən imtinasını nəzərdə tutur. Bu insanların muzeydə nə qədər vaxt sərf etdiyini yox, onların muzeyi dərk etməsinə çəkdiyi vaxtı bildirir. Onu qeyd edək ki, yüksək gəlirli, əsasən özü özünün işinin sahibi olan şəxslər üçün vaxtın fürsət dəyəri, aşağı gəlirli, əsasən fiks maaşlı işlərdə işləyən şəxslərinkindən daha yüksək olur. Ona görə də ikincilər muzeyləri daha çox ziyarət etmələri gözlənilir. Turistlərin isə bu vaxtı yerli sakinlərinkindən daha aşağı olur. Ona görə də onlar ziyarətləri əsnasında müəyyən muzeyləru ziyarət etməyə üstünlük verirlər [5].

Muzeylər iqtisadi aləmin bir parçası olduqları üçün onların iqtisadi təsirinin qiymətləndirilməsi vacibdir. Muzeylərin iqtisadi təsirinin qiymətləndirilməsində əsasən iki yanaşmadan istifadə olunur:

- ⇨ Xərcləmə yanaşması (spending approach) - bu xərclər maliyyə aspektlərinə yönəlməklə, ziyarətçilərdən gələn gəlirləri və muzey xərclərini əhatə edir;

- Qiymətləndirmə yanaşması (evaluation approach) - daha geniş qiymətləndirmə olmaqla, insanların incəsənət və mədəniyyət sahələrindən əldə etdiyi faydaları maddi formaya keçirməklə araşdırır [1, s. 27].

Muzeylər iqtisadi əhəmiyyəti ilə yanaşı özündə sosial funksiyanı da yerinə yetirir. Belə ki, muzeylər ölkənin, xalqın, regionun mədəniyyətinin qorunub gələcək nəsillərə ötürülməsi, yerli əhalinin və qonaqların şəhərin, ölkənin mədəniyyəti, tarixi, təbiəti ilə yaxından təmas etməsi, məlimatlanma, öyrənmə baxımından müstəsna əhəmiyyətə malikdirlər. Muzeyləri əhalinin asudə vaxtının təşkil edilməsində çıxış edən müəssisələr olmaqla, bu əsnada onların intelektual fərd kimi formalaşmasına təsir göstərən alət kimi də qiymətkləndirmək yerinə düşərdi. Şotland urbanist və polimatı Patrik Geddes öz yazılarından birində belə qeyd etmişdir: “Hər bir fəal fikirli vətəndaş öz şəhərinin həyatı və fəaliyyətləri haqqında bilmək istədiyi hər şeyi örənmək üçün muzeyi şəhərdə ən əlçatanvə əlverişli yer hesab etməlidir. Bu onlarda yeni maraqlar oyadacaq və əvvəllər ağlına belə gətirmədiyi şeyləri öyrənəcəkdir.” Muzeylərin insanların sosial həyatına da birbaşa təsirləri vardır. Muzeylər hər bir regionda əhalinin işlə təminatında müstəsna rol oynayır. Həm iri həcimli, dövlət tərəfindən maliyyələşən muzeylər, həm də yerli kiçik həcimli muzeylər əhalinin işlə təminatına müsbət təsir göstərir. Xüsusulə son dövrlərdə yerli xırda muzeylərin artım tendensiyası dünya ölkələrində böyük şəhərlərdən kənarda muzeylərin inkişafına səbəb olur ki, bu da öz növbəsində həmin ərazilərdə məşğulluğun təmin edilməsinə təsir göstərir. Muzeylər təkcə bu sahədə məşğulluğu təmin etmir, həmçinin bu sahə ilə dolayısı ilə bağlı olan sahələrin inkişafına təsir göstərir. Bu sahələrə turizm, restoran sənayesi, suvenir istehsalı kimi sahələri aid etmək olar. Müasir dövrdə muzeylər ziyarətci cəlb etmək üçün ərazilərində restoran, satış məntəqələri kimi ərazilər ayırırlar. Bu da həm digər sahələrin inkişafına təkan verir, həm də daha çox iş yerlərinin açılmasına səbəb olur.

**Azərbaycanda muzeylərin iqtisadi göstəricilərinin qiymətləndirilməsi**

Azərbaycan ərazisində mövcud olan muzeylər əsasən dövlət tabeliyində olan, ictimai muzeylərdən təşkil olunmuşdur. Təəssüf doğuran məqamlardan biri də məhz burasındadır ki, 2020-ci ilin statistik göstəricilərinə əsasən ölkədə yalnız bir şəxsi muzey qeydiyyata alınmışdır. Muzeylərin əksəriyyətinin ictimai muzeylərdən ibarət olması, onlar arasında rəqabətin olmaması, muzey rəhbərlərinin daha çox ziyarətçi cəlb etməkdə maraqlı olmamasıdır ki, bu da muzeylərdə işin keyfiyyətinin aşağı səviyyədə olmasına səbəb olur. Statistika Komitəsinin 2020-ci ilan məlumatlarına əsəasən ölkə ərazisində 240 muzey vardır ki, burada muzey fondu 1339, çalışanların sayı isə 3585 nəfər təşkil etmişdir. Azərbaycan Respublikası ərazisində muzeylərin fəaliyyəti “Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu”na əsasən həyata keçirilir. 24 mart 2000-ci ildə qəbul olunmuş bu qanun, 5 fəsil və 28 maddədən ibarət olmaqla, muzeylərin fəaliyyətinin dövlət səviyyəsində tənzimlənməsində əsas qanun rolunu oynayır. Azərbaycanda muzeylərin işinin düzgün qurulması, bu sahənin inkişafı, dərindən araşdırılması üçün muzeyşünaslıq ixtisasının tədrisi də həyata keçirilir. Bu ixtisas hazırda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində tədris edilir. Lakin, burada tədrisin yüksək səviyyədə və standartla uyğun qurulmaması, tədris əsnasında ənənəvi tədrisin təsirlərindən çıxmamaq, yeni tədris üsullarının tətbiq edilməməsi kimi boşluqlar məzunların da fəaliyyət keyfiyyətinə təsirsiz ötüşmür. İndi isə gəlin muzeylər üzrə müxtəlif statistik göstəricilərə ayrıca nəzər salaq. Əlbəttə ilk nəzər salacağımız göstəricilər ölkədə muzeylərin sayı ilə bağlı olacaq. Muzeylərin cəmi və fəaliyyət istiqamətləri üzrə sayına qrafik 1-də əks olunmuş məlumatlara əsasən baxmaq olar.

**Qrafikq 1.**

**Azərbaycan Respublikasında muzeylərin say dinamikası**




| | 1990 | 2000 | 2010 | 2015 | 2020 |
|---|---|---|---|---|---|
| Cəmi | 124 | 155 | 226 | 234 | 240 |
| Tarix | 9 | 14 | 67 | 76 | 76 |
| Xatirə | 27 | 32 | 39 | 41 | 42 |
| Diyarşünaslıq | 57 | 63 | 69 | 67 | 69 |
| İncəsənət | 29 | 37 | 39 | 40 | 41 |
| Digər | 7 | 9 | 12 | 11 | 12 |

Mənbə: Qrafik stat.gov.az məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Müvafiq məlumatlara əsasən 2020-ci ildə muzeylərin sayının göstəricilərinin 1990-cı llə müqayisəsini apardıqda aşağıdakı nəticələri almış oluruq: muzeylərin cəmi sayında 48.3% artım; tarix muzeylərinin sayında 88.1% artım; xatirə muzeylərinin sayınında 35.8% artım; diyarşünaslıq muzeylərinin sayında 17.3% artım; incəsnət muzeylərinin sayında 29.2% artım; digər fəaliyyət sahələri üzrə ixtisaslaşmış muzeylərin sayında isə 41.6% artım qeydə alınmışdır. Məlumatlardan göründüyü kimi müstəqillik illərində ərazimizin 20%-in işğal alıtında olmasına baxmayaraq muzeylərin sayında artım öz əksini tapmışdır. Lakin, bu muzeylərin əksəriyyəti dövlət büdcəsi və ya Heydər Əliyev Fondunun dəstəyi əsasında formalaşmış muzeylərdirlər. Eyni zamanda ölkədə fəaliyyət göstərən muzeylərin bir neçəsi Azərbaycan Respublikasının dövlət qurumlarının tabeliyində fəaliyyət göstərir ki, bunların da üçü Nazirlər Kabinetinin, 226-ı Mədəniyyət Nazirliyinin, biri Təhsil Nazirliyinin, biri Səhiyyə Nazirliyinin, biri Kənd Təsərrüfatı Nazirliyinin, biri Ekologiya və Təbii Sərvətlər Nairliyinin, biri Daxili İşlər Nazirliyinin, dördü Milli Elmlər akademiyasının, biri Dövlət Neft Şirkətinin tabeliyindədir. Hazırda ölkədə dövlət tərəfindən qrydiyyata alınmış yalnız bir muzeyin olduğu qeyd edilmişdir [stat.gov.az]. Həmçinin muzeylərin sayında artım qeydə alınsa da, etiraf etmək lazımdır ki, muzey qıt muzey fondu və aşağı keyfiyyət muzeylərin fəaliyyətində müsbət olmayan təsirlər buraxmışdır. Burada ölkədəki muzey fonduna nəzər salmağımız da yerinə düşərdi. Bunun üçün qrafik 2-ə nəzər salaq. Ölkədəki muzey fonduna nəzər saldıqda burada da artım müşahidə etmək olur. Lakin, buradakı artım muzeylərin sayındakı artımla mütənasiblik təşkil etmir. Belə ki, muzey fondundakı artımlara nəzər saldıqda görürük ki, cəmi muzey fondunda 2000-ci illə müqayisədə 2020-ci ildə 14.4%, müvafiq illər üzrə müqayisədə tarix muzeyləri üzrə 0.45% azalma, xatirə muzeylərində 34.4% artım, diyarşünaslıq muzeyləri üzrə 5.1% artım, incənət muzeylərində 23.5% artım və digər fəaliyyət sahələri üzrə fəaliyyət göstərən muzeylərdə isə 38.3% artım qeydə alınmışdır. Ümumi və digər muzey sahələrindən fərqli olaraq tarix muzeyləri üzrə muzey fondlarında azalmanın müşahidə olunduğunu müşahidə ediriksə, xatirə, incənət və digər kateqoriyalara aid olan muzeylərin fondunda isə ikirəqəmli artımın olduğunu görürük. Muzeylərin fəaliyyətini qiymətləndirərərkən burada çalışan işçilərinin sayının müəyyən edilməsi də əsas məqamlardan biridir.

**Qrafik 2.**

**Azərbaycan Respublikasında muzey fondunun təşkili səviyyəsi**




Mənbə: Qrafik stat.gov.az məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Muzey sahəsinin inkişafı, həmçinin yerli ərazidəki əhalinin sosial həyatına təsir göstərir ki, bunun da əsas təsir nöqtəsi burada çalışan işçilərdir. Əhalinin məşğulluğunun təmin edilməsində bu sahənin ərazidə mövcud olması töhvə vermiş olur. Ölkəmizdə muzeylərdə çalışan işçilərin sayı və həmçinin onların tərkibində mütəxəssislərin, digər işçilərin və qadınların sayı barədə qrafik 3-də məlumat ala bilərik.

**Qrafik 3.**

**Azərbaycan Respublikasında muzeylərdə çalışan işçilərin sayı**




Mənbə: Qrafik stat.gov.az məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Ölkəmizdə 2020-ci ildə 2000-ci il ilə müqayisədə işçi sayında 37.9% artım qeydə alınmışdır. Müvafiq illər ərzində mütəxəssislərin sayında 50%-ə qədər artım qeydə alınmışdır ki, 2000-ci ildə mütəxəssislərin ümumi işçi sayındakı payı 40.5% olduğu halda, 2020-ci ildə bu göstərici 50.2%-ə qalxmışdır. Digər işçilərin sayı isə müvafiq olaraq 59.5%-dən 49.8%-ə enmişdir. Statistika komitəsində muzeylərdə çalışan işləyən işçilərin sayı 2001-ci ildən etibarən verilməyə başladığı üçün onların sayındakı artımı 2001-ci ilin göstəricisinə (1638 nəfər) uyğun

olaraq hesabladıqda, 2020-ci ildə bu illə müqayisədə qadın işçilərin sayında 21% artım qeydə alınmışdır. Ümumilikdə 2020-ci ilin göstəricisinə əsasən ölkədə muzeylərdə çalışanların 75.4%-i qadınlar təşkil etmişdir. Bu sahədə çalışan işçilərin sayında qadınların üstün olmasında əsas səbəblər kimi, mental dəyərlər, muzey sahəsində gəlirliliyin az olması, xüsusi fiziki gücün tələb olunmaması kimi faktorları göstərmək olar. Lakin, onu da qeyd etməliyik ki, muzeylərdə çalışan kadrların işinin keyfiyyətində yuxarıda qeyd etdiyim təhsilin də səbəkar olduğu aşağı keyfiyyət amilini nəzərdən keçirməmək olmaz. Xüsusilə də dil bacarıqları olan işçilərin az olması, hətta region muzeylərində belə işçilərə rast gəlinməməsi faktları ilə qarşı-qarşıya qala bilirik. Bu isə xarici qonaqların əksər hallarda ölkə muzeylərindən narazı ayrılmasına səsbəb olan amillərin başında durur. Muzeylərin işini qiymətləndirərkən onların Azərbaycan Respublikasının iqtisadi rayonları üzrə bölgüsünə əsasən muzeylərin sayı, onların ölkə üzrə muzeylərin sayına nisbəti və iqtisadi regionlar üzrə muzeylərə gələn ziyarətçilərin sayı və onların ümüumi göstəriciyə faiz nisbətini müəyyən etməkdə də fayda var. Bu bizə regionlarda muzeylərin fəaliyyətinə qiymət verməyə və onların mövcud vəziyyətini müəyyən etməyə kömək edəcək. Gəlin bu məlumatlara cədvəl 1-də verilmiş məlumatlara əsasən nəzər yetirək.

**Cədvəl 1.**

**Azərbaycan Respublikasının iqtisadi rayonları üzrə muzeylərin və ziyarətçilərin sayı (2020)**

| İqtisadi rayonlar | Muzeylərin sayı | Muzeylərin ölkədəki ümumi muzey sayına nisbəti | Ziyarətçilərin sayı (min nəfər) | Ziyarətçilərin sayının ümüumi ölkə üzrə ziyarətçi sayına nisbəti |
|---|---|---|---|---|
| **Bakı** | 35 | 14.5% | 192.0 | 27% |
| **Naxçıvan MR** | 31 | 13% | 145.7 | 20.4% |
| **Abşeron-Xızı** | 7 | 3% | 16.1 | 2.3% |
| **Dağlıq Şirvan** | 10 | 4.2% | 8.9 | 1.3% |
| **Gəncə-Daşkəsən** | 19 | 8% | 40.6 | 5.8% |
| **Qarabağ** | 26 | 10.9% | 30.7 | 4.4% |
| **Qazax-Tovuz** | 16 | 6.7% | 21.2 | 3% |
| **Quba-Xaçmaz** | 11 | 4.6% | 23.8 | 3.4% |
| **Lənkəran-Astara** | 16 | 6.7% | 64.0 | 9% |
| **Mərkəzi Aran** | 18 | 7.5% | 44.6 | 6.3% |
| **Mil-Muğan** | 8 | 3.4% | 12.7 | 1.8% |
| **Şəki-Zaqatala** | 22 | 9.2% | 29.6 | 4.2% |
| **Şərqi Zəngəzur** | 7 | 3% | 21.7 | 3.1% |
| **Şirvan-Salyan** | 14 | 5.9% | 59.4 | 8.4% |
| **Cəmi** | 240 | | 711.0 | |

Mənbə: Cədvəl stat.gov.az məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvələ nəzər yetirdikdə ölkənin iqtisadi rayonları üzrə mənzərəni daha aydın görmək olur. Göründüyü kimi, muzeylərin əsas hissəsi Bakı və Naxçıvan MR ərazində yerləşmişdir, müvafiq olaraq 14.5% və 13% olmaqla. Ən az muzeyə ev sahibliyi edən iqtisadi rayonlar isə, Abşeron-Xızı və Şərqi-Zəngəzur iqtisadi rayonlarıdır ki, burada muzeylərin sayı hər iki regionda ümumi ölkə üzrə muzeylərin sayına nisbətdə 3%-ni təşkil edir. Bu regionlarda muzeylərin sayının az olmasını isə əhali və ərazi faktorları ilə əlaqələndirmək mümkündür. Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə düşmənin dağıdıcı təsirlərini də nəzər alsaq, təəssüf ki, bu ərazilərdəki muzeylərin fəaliyyətindən söhbət belə gedə bilməz. Ölkənin digər mədəni mərkəzləri olan Gəncə-Daşkəsən, Qazax-Tovuz, Quba-Xaçmaz, Lənkəran-Astara iqtisadi rayonlarında isə ümumi göstərici 4.6-9.2% faiz aralığndadır ki, bu nəticəni o qədər də qənaətbəxş hesab etmək olmaz. Muzeylərə gələn ziyarətçilərin sayına nəzər saldıqda lider kimi yenə də 27% və 20.4% göstərici ilə Bakı və Naxçıvan MR çıxış edir. Muzeylərin sayının digər regionlara nisbətən çox oldoğu Qazax-Tovuz, Şəki-Zaqatala iqtisadi rayonlarında isə vəziyyət

əksinədir və burada ziyarətçilərin sayı ümumi ölkə üzrə ziyarətçilərin sayının cəmi 3% və 4.2%-ni təşkil edir. Ziyarətçilərin sayının müsbət mənada təəccüblü olduğu regionlara isə Lənkəran-Astara və Mərkəzi Aran iqtisadi rayonlarını daxil etmək olar. Bütün bu göstəricilərdən bu nəticəyə gəlmək olar ki, muzeylərin əasən paytaxt Bakı və Naxçıvan MR ərazisində geniş cəmləşməsi və inkişafı, burada turistlərin sayının daha çox olması (xüsusilə paytaxtda) və daha rəngarəng muzey fondunun olması burada ziyarətçilərin də sayına təsir göstərmişdir. Muzeylərin və ziyarətçilərin sayına təsir göstərən digər amil isə regionlarda təhsilin mədəni mühitin mövcud vəziyyətidir. Ümumilikdə ölkədə muzeylərin sayının əhalinin sayına nisbətinə nəzər saldıqda isə, 2020-ci ildə ölkədəki əhalinin sayının 10067.1 nəfər olduğunu nəzərə alsaq, hər 100.000 nəfərə 2.4 muzey düşmüşdür. Dünyanın bir parçası olan ölkəmiz, muzeylərin inkişaf etdirilməsi fonunda da həm region, həm də dünya ölkələri ilə daim rəqabət şəklində olmalı, onların təcrübələrini mənimsəməli və daim rəqabətdə onlra uduzmamaq üçün yeniliklərin tətbiq edilməsini qarşıya məqsəd qoymalıdır. Azərbaycanda muzeylərin sayının və muzeyə gələn ziyarətçilərin sayının MDB ölkələri ilə müqayisəsinə qrafik 4-də nəzər salaq.

**Qrafik 4.**

**MDB ölkələrində muzeylərin və muzey ziyarətçilərinin sayı (2020, min nəfər)**




Mənbə: Qrafik stat.gov.az məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, təbii olaraq, həm tarix, həm mədəni mühit, ərazi və əhali faktorları, həm iqtisadi güc və eyni zamanda müstəmləkə tarixi olan Rusiya həm muzey sayı, həm də ziyarətçilərin sayına görə liderlik təşkil edir. Məlumatlara əsasən əsas təəssüf doğuran məqam ondan ibarətdir ki, həm əhali sayı, həm də muzey sayına görə digər ölkələrdən üstün olan ölkəmiz, muzey ziyarətçilərinin sayına görə bir çox ölkələrdən geri qalır. Belə ki, muzeylərin sayına görə üçüncü olan Azərbaycan, ziyarətçilərin sayına görə Ermənistanla birlikdə beşinci və altıncı yerləri bölüşürlər. Müqayisə üçün deyə bilərik ki, Azərbaycanın əhalisi 10 milyondan çox, Ermənistan əhalisi isə üç milyon nəfərdən azdır. Həmçinin ölkələrə gələn turist sayına görə də ölkəmiz bu ölkəni qabaqlayır. Müqayisələr onu deməyə əsas verir ki, ölkəmizdə həm yerli sakinlərin, həm də turistlərin muzeylərə olan marağı azdır. Bunun da əsas səbəbi muzeylərimizin ziyarətçilərə maraqlı olan sərgilərdən təşkil olunmaması, əsasən eyni tipli xidmətləri təklif etmələridir. Dünyanın qabaqcıl iqtisadi gücləri olan ölkələrin təcrübəsinə nəzər saldıqda daha böyük rəqəmlərə şahid olmuş ola bilərik. Misal üçün, 2019-cu ildə Birləşmiş Krallıqda muzeylər 8900 iş yeriyaratmış, 24 milyondan çox ziyarətçiyə (10 milyonu beynəlxalq ziyarətçilər, 14

milyonu yerli) ev sahibliyi etmişdir. Gələn turistlər ölkə muzeylərində 440 milyon Funt Sterlinq həcmində vəsait xərcləmişlər. Ümumilikdə muzeylərin ümumi birbaşa iqtisadi təsiri 17100 iş yeri və 730 milyon Funt Sterlinq həcmində gəlirdən ibarət olmuşdur[7]. Digər dünya nəhəngi olan ABŞ-da isə 2009-cu ilin göstəricilərinə əasən muzeylərdə işçilərin sayı 726.206 nəfər, bu sahənin yaratdığı gəlir 34.7 milyard dollar, Ümumi Əlavə Dəyəri (GVA) 49.9 milyard dollar olmuş, federal, yerli və ştatlar üzrə bu sahədən toplanılan vergi isə 12 milyard dollar təşkil etmişdir [10].

**Nəticə**

Muzeylər bədii-estetik zövqü formalaşdıran, cəmiyyətin mədəni həyata daha yaxşı adaptasiya olunmasına təkan verən verən bir obyekt olmaqla, onların iqtisadi, sosial təsirlərini də unutmaq olmaz. Muzeylər tarixi, incəsənəti, müasir və keçmiş dünyanı dərk etməyin ən yaxşı vasitəsi olduğu kimi, bir ölkənin və ya ərazinin iqtisadi tərəfinin inkişaf etdirilməsi, bu ərazidə əhalinin sosial-iqtisadi rifahının yaxşılaşdırılmasında da önəmli rol oynayır. Ölkəmizin həm qədim tarixi, adət ənənələri, köklü incəsənəti ölkəmizdə geniş muzey şəbəkəsinin mövcud olmasına şərait yaradır. Bunun nəticəsidir ki, kiçik bir ərazisinin olmasna baxmayaraq ölkəmiz 240 muzeyə ev sahibliyi edir ki, bu ərazisi və əahalisi ölkəmizdən qat-qat çox olan digər MDB ölkələrindəki muzeylərin sayını qabaqlayır. Lakin bütün bunlarla yanaşı kəmiyyətin keyfiyyətlə uzlaşmaması bu sahənin qarşılaşdığı ən böyük problemlərdən biri kimi kimi qarşımıza çıxır. Ölkəmizdə fəaliyyət göstərən muzeylərin cəmi biri özəl olmaqla, digər 239-u dövlətin müxtəlif qurumlarının tabeliyində fəaliyyət göstərən və maliyyələşən qurumlar kimi fəaliyyət göstərirlər. Bu isə yzının nəzəri hissəsində toxunduğumuz kimi, azad olmayan və maliyyə sıxıntısı çəkməyən muzey rəhbərlərini muzeylərdə gəlirliyi artırmaqda, daha çox ziyarətçi cəlb etməkdə maraqlı etmir. Xüsusilə də, region muzeylərində vəziyyət daha da pis olmağı ilə seçilir. Belə ki, bu muzeylər qıt eksponat kolleksiyalarına sahib olmaqla yanaşı, maraq cəlb etməyən dizaynları, ziyarətşiləri özünə cəlb edən sərgi və vasitələrdən əksik olmaları, muzeylərin sadəcə bir bina və monoton tərkibli eksponatlardan təşkil edilməsi kimi amillər muzeylərin fəaliyyət keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Muzeylərin maarif işinin də önəmli olduğunu nəzərə alsaq ölkəmizdə muzeylərin bu sahədə də geri qaldığının şahidi oluruq. Digər ölkələrdə muzeylər həm çşagirdlərin, həm də elm adamlarının öz biliklərini inkişaf etdirmələri, araşdırmalar, eksperimentlər aparmaları üçün bir mərkəz rolunu oynadığı halda, ölkəmizdə bunlara rast gəlmək demək olar ki, olmur. Bu muzeylərin faydalılığının aşağı göstəricidə olmasına nümunilərdən bir digəridir. Bütün bu deyilənlər isə onu deməyə əsas verir ki, ölkəmizdə muzeylərin xərcləmə yanaşmasına əsasən faydalılığı aşağı olduğu kimi, qiyətləndirmə yanaşmasına görə faydalılığı da aşağı səviyyədədir. Bunu tam dəqiq müəyyən etmək üçün isə eksperimentlərin edilməsinə ehtiyac vardır.

**Ədəbiyyat**

1. Alessandro Bollo; Report 3. Measuring Museum Impacts, 2013, https://www.academia.edu/6601989/Measuring_Museum_Impacts
2. Assist. Prof. Dr. Burcu Günay, Museum Concept From past to Present and importance of museums as centre of art education, İnternational Conference on New Horizons in education INTE 2012
3. Azərbaycan Dövlət Statistika Komitəsi, https://stat.gov.az/source/education/
4. “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/735
5. Bruno S. Frey, Cultural Economics, 2009

6. Culture and local development: Maximising the impact - Guide for Local Governments, Communities and Museums, https://icom.museum/wp-content/uploads/2019/08/ICOM-OECD-GUIDE_EN_FINAL.pdf
7. Economic Impact of the Independent Museum Sector – Summary Report 2019, https://aim-museums.co.uk/wp-content/uploads/2019/10/Economic-Impact-of-the-Independent-Museum-Sector-2019-Summary-Report.pdf
8. ICOFOM Study Series 48-2 | 2020 Defining the museum: challenges and compromises of the 21st century
9. Karen Brown and Francois Mairesse, The definition of the museum through its social role, https://www.researchgate.net/publication/328569337_The_definition_of_the_museum_through_its_social_role
10. Museums as Economic Engines A National Report, An Economic Impact Study for the American Alliance of Museums December 2017, https://www.aam-us.org/wp-content/uploads/2018/04/American-Alliance-of-Museums-web.pdf
11. Tony Travers, Museums and Galleries in Britain Economic, social and creative impacts, London School of Economics December 2006, https://www.nationalmuseums.org.uk/media/documents/publications/museums_galleries_in_britain_travers_2006.pdf

***Джамаладдин Парвиз оглу Мамедов***

***Музеи в Азербайджане как составная часть экономики***

***Резюме***

*Музеи существовали с древних времен в различных формах, играя важную роль в развитии, передаче и защите культуры, истории, искусства и науки народа, а также в формировании концепции индустрии культуры в мире, где капитализм развивается, и к коммерциализации этих сфер музеи также подошли с экономической точки зрения. Основной целью написания статьи является определение современного состояния музейного дела в Азербайджане в мире, где стремительно прогрессирует глобализация, и определение направлений его развития. Статья подготовлена с использованием информации, содержащейся в АРДСК, с привязкой к мировому опыту. Его важность заключается в рассмотрении современного положения музеев в рамках реформ, проводимых в сфере развития культуры в нашей стране, а также выступлении базой для тех, кто в будущем будет проводить исследования в этой области. Основными результатами, полученными при работе над статьей, стали фиксация роста количества музеев в нашей стране в 2020 г. по сравнению с 2000 г. на 48,3 %, а также увеличение числа сотрудников, работающих в музеях, на 37,9 %. Здесь упомянуты методы повышения доходности музеев в современную эпоху, проанализирована текущая ситуация в нашей стране и показаны методы их адаптации к современным стандартам.*

***Ключевые слова:*** *музей, страна, экономика, культура.*

***Jamaladdin* Parviz Mammadov**

***Museums in Azerbaijan as an integral part of the economy***

***Summary***

*Museums have existed since ancient times in various forms, playing an important role in the development, transmission and protection of the culture, history, art, and science of the people, and with the formation of the concept of culture industry in the world where capitalism is developing, and the commercialization of these fields, museums have also been approached from an economic aspect. The main goal of writing the article is to determine the current state of the museum field in Azerbaijan in a world where globalization is rapidly progressing and to determine its development directions. The article was prepared using the information contained in ARDSK, with reference to world experience. Its importance lies in considering the current situation of museums within the framework of the reforms carried out in the development of culture in our country, as well as acting as a base for those who will conduct research in this field in the future. The main results obtained while working on the article were the recording of a 48.3% increase in the number of museums in our country in 2020 compared to 2000, and a 37.9% increase in the number of employees working in museums. Here, the methods of increasing the profitability of museums in the modern era have been mentioned, the current situation in our country has been analyzed, and the methods of adapting them to modern standards have been shown.*

***Keywords:*** *museum, country, economic, cultural*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 22.09.2022.***
***Çapa qəbul olunub: 29.09.2022.***